*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 avqust 2019-cu il № 63 (2380) Qiymətı 30 qəpik


## Bakıda "Dəniz Kuboku-2019" müsabiqəsinin bağlanış mərasimi keçirilib




Avqustun 15-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2019" müsabiqəsinin təntənəli bağlanış mərasimi keçirilib.

Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin rəsmilərinin, diplomatik korpusun nümayəndələrinin, müsabiqə iştirakçılarının, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin hərbi qulluqçularının, media təmsilçilərinin iştirak etdikləri mərasimdə respublikanın Əməkdar artisti Ramil Qasımovun və əsgər xorunun ifasında dünya şöhrətli sənətkarımız Rəşid Behbudovun repertuarından "Ey Vətən" mahnısı səsləndirilib.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri cəbhəboyu zonada yeni tikilən hərbi hospitalın açılışında olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının diqqət və qayğısı nəticəsində ordu quruculuğu üzrə şəxsi heyətin xidmət, sosial-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması istiqamətində inamlı islahatlar həyata keçirilir, ordunun maddi-texniki təminatı gücləndirilir, müasir standartlara cavab verən hərbi infrastrukturlar qurulur.*

Ölkə rəhbərliyinin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti bu istiqamətdə görülən işlərlə bağlı Silahlı Qüvvələrin Ali Baş Komandanına məruzə edilməsi məqsədilə cəbhəboyu zonada yeni tikilən hərbi hospitalın açılışında olub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə Müdafiə Nazirliyinin rəhbərliyi ümummilli liderimiz Heydər Əliyevin hospitalın ərazisindəki abidəsi önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə ediblər.

Məruzəyə əsasən, 150 çarpayılıq hərbi hospitalın 6 hektar ərazini əhatə etdiyi bildirilib. Burada qərargah, birmərtəbəli patoloji anatomiya, daimi oksigen təminatı üçün oksigen və transformator binaları tikilib, eləcə də 450 kubmetr həcmində su anbarı, əsgər yeməkxanası, ərzaq və əşya anbarı, hamam-camaşırxana-qazanxana kompleksi, 60 yerlik avtodayanacaq, nəzarət-buraxılış məntəqəsi inşa edilib. Ərazidə yaşıllaşdırma işləri aparılıb, abadlıq işləri görülüb, asfalt örtüyü salınıb.

Hərbi hospitalda sahəsi 7267 kvadratmetr olan ikimərtəbəli diaqnostika mərkəzi də inşa olunub. Mərkəzdə qan bankı, laboratoriyalar, müalicə palataları, əməliyyat otaqları, doqquz nəfərlik reanimasiya palatası, cərrahiyyə və əməliyyat blokları, tibbi ləvazimatlar anbarı, qəbul şöbəsi, xəstələr üçün qida qəbulu zalları, aptek, stomatologiya, oftalmologiya, yuma-dezinfeksiya, ginekologiya, LOR, terapiya, rentgen və kompüter tomoqrafiyası, endoskopiya, dermotologiya və efferent bölmələri yaradılıb.



Bildirilib ki, Almaniya, ABŞ, Yaponiya və digər qabaqcıl ölkələrdə istehsal edilən, tibbin son nailiyyətləri olan avadanlıqlarla təchiz edilən palatalarda hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, eləcə də onların müalicəsi üçün hər cür şərait mövcuddur. Hospital bioloji təmizləmə qurğusu, cərrahiyyə əməliyyatlarının fasiləsiz təminatı üçün UPS sistemi, ehtiyat generator qurğusu, su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə təmin olunub. Həmçinin təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2 reanimobildən ibarət qrup yaradılıb və təxliyə üçün hospitalın ərazisində helikopter meydançası salınıb.

Müdafiə naziri yeni istifadəyə verilən hərbi hospitalda yaradılan şəraitlə tanış olduqdan sonra tibbi personalla görüşüb, onları müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonda qurbanlıqlar kəsilib və xatirə şəkilləri çəkdirilib.

# Müdafiə naziri cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi hissədə olub

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatlara əsasən, cəbhəboyu zonanın müxtəlif istiqamətlərində yeni hərbi obyektlərin tikintisi davam etdirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektlərdə olublar.

Müdafiə nazirinə məruzə edilib ki, ilin sonunadək istifadəyə verilməsi planlaşdırılan bu hərbi şəhərciklər su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə tam təmin olunacaq, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılacaqdır.

Bildirilib ki, bu hərbi şəhərciklərdə qərargahlar, zabit və əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular inşa ediləcək. Eyni zamanda, hərbi qulluqçuların yaşayışı və xidməti-döyüş tapşırıqlarını yerinə yetirmələrini təmin etmək məqsədilə müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, camaşırxana-hamamxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektlərinin tikilməsi də nəzərdə tutulub.

Yeni inşa edilən hərbi hissədə aparılan tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 avqust 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri ön xətt bölmələrində olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində xidmət edən hərbi qulluqçularla görüşüb.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əməliyyat şəraitinin vəziyyəti barədə məruzələri dinlədikdən sonra Müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Bölmələrdəki şəraitlə tanış olan nazir ön xətdə xidmət edən hərbi qulluqçularla da görüşüb, şəxsi heyəti Qurban bayramı münasibətilə təbrik edib, onların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini vurğulayıb.

Sonda Müdafiə naziri şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

## “Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli platformadır”

*Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçiriləcək və Azərbaycan Respublikası 2019-2022-ci illərdə bu quruma sədrlik edəcək. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyev AZƏRTAC-a Hərəkatın üzv dövlətlər arasında əlaqələrin intensivləşməsi üçün yaratdığı imkanlardan, bu platformanın Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli rolundan danışıb.*

Qoşulmama Hərəkatı 120 üzv ölkəni, 17 müşahidəçi dövləti və 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi BMT-dən sonra dünya dövlətlərinin ən böyük toplantısı hesab olunur. Hərəkat ilkin olaraq üzv dövlətlərin milli müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinin qorunması çərçivəsində imperializm, müstəmləkəçilik və post-müstəmləkəçilik, irqçilik və hər hansı xarici müdaxilə, zoraki kənar təsir və təzyiq, eləcə də böyük güclərin münaqişə zəminində yaratdıqları çoxüzvlü hərbi və siyasi bloklara qarşı formalaşıb.

2006-cı ilin sentyabrında Qoşulmama Hərəkatının Kubanın paytaxtı Havanada keçirilən Sammitində üzv ölkələr Qərb və Sovet İttifaqı arasında soyuq müharibənin başa çatması və qütblərdən birinin dağılmasının QH-nin inkişaf etməkdə olan dövlətlər üçün önəmini azaltmadığını bildirib və hərəkatın yeni dövr üçün məqsədlərini müəyyənləşdiriblər. Onlar Hərəkatın inkişaf etməkdə olan dövlətlər üçün siyasi koordinasiya mexanizmi kimi gücləndirilməsinə və qlobal təhdidlərə qarşı üzv ölkələr arasında əməkdaşlığın əlaqələndirilməsində aparıcı rol oynamasını təşviq etməyə qərar veriblər.

Təşkilat tədricən yüksələn dinamizmə malikdir və bu, üzv dövlətlər arasında əlaqələrin intensivləşməsi üçün imkanlar yaradır. Bu, dövlətlərə eyni cəbhədə yer almaq, onların digər platformalarda (məsələn, BMT-də) dəstəyini təmin etmək imkanı verir. Onların ölkəmizin maraqlarına dəstək ifadə edən mövqedən çıxış etmələri və maraqlarımızı əks etdirən beynəlxalq sənədlərin qəbul edilməsində iştirakı Azərbaycan diplomatiyasının qarşısında çox mühüm vəzifələr qoyur və böyük imkanlar təqdim edir.

Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli platformadır. Ölkəmizin bu Hərəkatda iştirakı Ermənistan-Azərbaycan münaqişəsində haqlı mövqeyimizin üzv dövlətlərin diqqətinə çatdırılması baxımından çox vacibdir. Bu, artıq praktikada özünü doğrultmuş bir yanaşmadır. Belə ki, Qoşulmama Hərəkatının 2016-cı ildə Venesuelada keçirilən Sammitində qəbul edilmiş yekun sənəddə iştirakçı dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipi ilə həll edilməsinin zəruriliyini göstərmiş və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməsinə çağırmışdılar. Oxşar mövqe Hərəkat üzvləri tərəfindən bu ilin iyul ayında Venesuela Respublikasının Karakas şəhərində keçirilən Nazirlər Şurasının yekun sənədində də ifadə edilib.

## Rusiya Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdədir

*Avqustun 14-də Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə qonaqlar ümummilli liderimiz Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri qərargahı qarşısında ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq öz ehtiramlarını ifadə ediblər.

Qonaqları salamlayan general-leytenant K.Vəliyev ölkələrimiz arasında əlaqələrin qurulmasında dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimad əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-leytenant K.Vəliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə olduğunu, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini R.Salikov da ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə əsaslandığını, hər iki ölkənin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm rol oynadığını bildirib.

Sonda "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının əhəmiyyətindən danışan R.Salikov, ölkəmizin "Dəniz Kuboku" müsabiqəsinə ev sahibliyi etdiyinə, tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

## Mariya Zaxarova: Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir

Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir. AZƏRTAC xəbər verir ki, bu fikri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə səsləndirib.

M.Zaxarova qeyd edib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsi üzrə sülh prosesinin hərtərəfli irəliləməsi məqsədilə öz köməyini göstərmək niyyətinə sadiq qalır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu məsələsinə gəldikdə isə, Rusiya XİN-in rəsmi nümayəndəsi vurğulayıb ki, bu məsələdə Moskvanın mövqeyi dəyişməyib: Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir.

Rusiya XİN-in rəsmi nümayəndəsi eləvə edib: "Biz bu gün Ermənistan və Azərbaycan arasında təmas xəttində nisbi sakitlik müşahidə edilməsini məmnunluqla qeyd edirik. Bununla yanaşı, tərəflərin bir-birini müxtəlif məsələlərdə ittiham etməsi bizdə narahatlıq doğurur. Bu cür ritorika danışıqlar üçün əlverişli şərait yaranmasına və nəticədə kompromis əldə olunmasına kömək etmir".

# Bakıda "Dəniz Kuboku-2019" müsabiqəsinin bağlanış mərasimi keçirilib

(Əvvəli 1-ci səhifədə)



Tədbirin aparıcısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bildirib ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildə bünövrəsi qoyulan "Beynəlxalq Ordu Oyunları"na maraq artır. "Dəniz Kuboku-2019" müsabiqəsinin həyəcanlı anları artıq geridə qaldı və hərbi dənizçilərimiz təbiətin sərt sınaqlarından uğurla çıxdılar. Üçüncü ildir ki, Azərbaycan "Dəniz Kuboku" müsabiqəsinə ev sahibliyi edir və yarışların şəffaf, yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradır. Ötən illərdə olduğu kimi, bu il də "Dəniz Kuboku" dostluq, qardaşlıq, qarşılıqlı anlaşma şəraitində keçib və bütün iştirakçı dövlətlərin böyük marağına səbəb olub.

Sonra "Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən ölkələrin dövlət bayraqları təntənəli mərasimə gətirilib.

Rusiya Xəzər Flotiliyasının, İran İslam Respublikası, Qazaxıstan və Azərbaycan respublikaları Hərbi Dəniz Qüvvələri komandalarının iştirak etdikləri "Dəniz Kuboku" müsabiqəsinin kuboku və iştirakçı dövlətlərin bayraqları alqışlar altında səhnəyə gətirilib, yarışların qısa xronikası videoçarx vasitəsilə təqdim edilib, hakimlər briqadasının son qərarı mərasim iştirakçılarına çatdırılıb.



Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında şəffaf, qarşılıqlı anlaşma şəraitində keçən "Dəniz Kuboku-2019" müsabiqəsinin qalibi Azərbaycan komandası olub. İkinci yeri Rusiya, üçüncü yeri Qazaxıstan komandaları tutub.

Mərasimdə çıxış edən Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil İdarəsinin rəisi, "Dəniz Kuboku-2019" müsabiqəsi Təşkilat Komitəsinin sədri general-leytenant Nizam Osmanov qeyd edib ki, bu gün paytaxt Bakı şəhərində beşinci "Beynəlxalq Ordu Oyunları" çərçivəsində "Dəniz Kuboku-2019" müsabiqəsinə yekun vurulur. O qeyd edib ki, Rusiya Federasiyası Hərbi Dəniz Donanması və İran, Qazaxıstan, Azərbaycan respublikaları Hərbi Dəniz Qüvvələrinin komandaları on gündən çoxdur Xəzər dənizinin Azərbaycan akvatoriyasında gərgin şəraitdə yarışdılar və bacarıqlarını nümayiş etdirdilər: "Şəffaf və yüksək səviyyədə keçirilən builki müsabiqədə iştirakçıların peşəkar döyüş hazırlığı səviyyəsinin yüksək olduğu müəyyən edildi. Beynəlxalq hakimlər kollegiyası öz vəzifələrini ləyaqətlə yerinə yetirdilər. Artıq qaliblər məlumdur. Sevindirici haldır ki, Xəzəryanı ölkələrin hərbi dənizçiləri öz güclərini döyüş meydanında deyil, yarış meydanlarında sınadılar. Mən "Dəniz Kuboku-2019" müsabiqəsinin uğurla başa çatması münasibətilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi adından bütün iştirakçıları, hakimləri, azarkeşləri, xüsusilə qalib komandaları təbrik edirəm".

General-leytenant bildirib ki, hansı ölkənin komandasının qalib gəlməsindən asılı olmayaraq, ən böyük qələbəmiz Xəzəryanı ölkələrin hərbi dənizçilərinin bir-birlərini yaxından tanıması, qarşılıqlı etimadın güclənməsi, əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi, dostluq və qardaşlıq mühitinin daha da genişlənməsi oldu. "Onu da diqqətinizə çatdırmaq istəyirəm ki, Beşinci "Beynəlxalq Ordu Oyunları"nda altı növ üzrə müsabiqədə Azərbaycanı təmsil edən komandalarımız da yüksək nəticələr əldə ediblər. Bu münasibətlə onları da təbrik edirəm", - deyə general-leytenant N.Osmanov əlavə edib.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikov, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil İdarəsinin rəisi, "Dəniz Kuboku-2019" müsabiqəsi Təşkilat Komitəsinin sədri general-leytenant Nizam Osmanov, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Hərbi Dəniz Donanmasının baş qərargah rəisi vitse-admiral Andrey Volojinskiy, Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən birinci dərəcəli kapitan Zaur Hümmətov və kontur admiral Oleq Korolyov komandalara və üzvlərinə kubok, medal və diplomlar təqdim ediblər.



Daha sonra çıxış edən Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikov yarış iştirakçılarını təbrik edərək müsabiqənin yüksək səviyyədə keçdiyini diqqətə çatdırıb. O qeyd edib ki, bu cür yarışlar dünyada sülhə və sabitliyə töhfədir. Azərbaycanın bu yarışı çox yüksək səviyyədə təşkil etdiyini bildirən R.Salikov Rusiyanın Müdafiə naziri Sergey Şoyqunun adından Azərbaycan Ordusunun rəhbərliyinə təşəkkür edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev çıxış edərək bildirib ki, "Dəniz Kuboku-2019" yarışı çox möhtəşəm və gözəl şəraitdə keçdi: "Bütün təşkilatçılara, yarışda iştirak edən ölkələrin nümayəndə heyətlərinə Azərbaycanın Müdafiə Nazirliyi adından təşəkkürümü bildirirəm. Biz çalışdıq ki, yarışları yüksək qonaqpərvərlik və dostluq şəraitində keçirək. Hesab edirəm ki, buna nail olduq. Bu yarışlarda ən böyük nailiyyət isə dostluq və qardaşlıq oldu".

Sonra Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev müsabiqəni bağlı elan edib.

Ənənəyə uyğun olaraq "Dəniz Kuboku-2019" müsabiqəsinin qalibi olan komandanın - Azərbaycanın Dövlət himni ifa edilib.

Sonra "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının və "Dəniz Kuboku" müsabiqəsinin bayraqları endirilib.



Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin ssenari müəllifi və quruluşçu rejissorluğu ilə hazırlanan "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim bədii hissə ilə başa çatıb. Bədii hissədə respublikanın Xalq artisti Samir Cəfərov, Əməkdar artist Məryəm Şabanova, Fuad Musayev, "Səma" rəqs qrupu çıxış ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda andiçmə mərasimi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, avqustun 11-də Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Mərasimlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib. Sonra gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul ediblər. Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları, ictimaiyyət nümayəndələri, veteranlar və əsgər valideynləri iştirak ediblər. Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış, məişət şəraiti ilə tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkiblər.*



Andiçmə mərasimlərindən biri "N" hərbi hissəsində baş tutdu. Tədbirdə general-mayor Hikmət Həsənov şəxsi heyəti və qonaqları salamladı, onları Qurban bayramı münasibətilə təbrik etdi. Hərbi hissənin Döyüş bayrağı orkestrin müşayiəti ilə sıra meydanına gətirildi.

Gənc əsgərləri təbrik edən general-mayor Hikmət Həsənov bu gün ordu quruculuğunda görülən işlərdən, şəxsi heyət üçün yaradılan sosial-məişət şəraitindən söz açdı: "Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan ordumuz bu gün Ali Baş Komandanımızın diqqət və qayğısı nəticəsində dünyanın ən güclü orduları sırasındadır. Bu yaxınlarda "Beynəlxalq Ordu Oyunları" çərçivəsində keçirilən müsabiqələrə nəzər yetirsək görərik ki, ordumuzu təmsil edən hərbi qulluqçular necə məharətlə çıxış edirlər. Müsabiqə iştirakçıları ordumuzda gedən inkişafın, şəxsi heyətin peşəkarlığının, döyüş hazırlığının canlı şahidi olurlar. Təbii ki, bu göstəricilər yuxarı komandanlıq tərəfindən orduya göstərilən diqqət və qayğının bariz nümunəsidir. Ordumuzun maddi-texniki bazasına gündən-günə yeni və müasir silahların daxil olması ilə yanaşı, şəxsi heyət də öz üzərində çalışaraq peşəkarlığını daha da artırır. İnanıram ki, bu gün Hərbi andı qəbul edən gənc əsgərlərimiz də hərb sənətinin sirlərinə dərindən yiyələnəcək, bilik və bacarıqlarını daim artıracaq və bizlərlə birlikdə çiyin-çiyinə torpaqlarımızın azadlığı uğrunda mübarizə aparacaqlar."

Gənc əsgər atası, Qarabağ qazisi Füzuli Hüseynov bütün valideynlər adından şəxsi heyəti təbrik etdi. "Ordunun gücü təkcə müasir silah və texnikada deyil, xalqdan gələn dəstəkdə, Vətən övladlarının, gənclərimizin əzm və iradəsindədir. Hər bir gənc üçün Vətəni qorumaq şərəfdir. Bu gün şərəfli peşəyə sahiblənən siz gənc əsgərlərə güvənərək böyük inam hissi ilə bildirmək istəyirəm ki, Azərbaycan əsgəri tarix boyu şanlı salnamələr yazmış ata və babalarının qəhrəmanlıq ənənələrini davam və inkişaf etdirəcək."

Gənc əsgər Elşən Həmzəyev də çıxış edərək Hərbi anda daim sadiq qalacaqlarına, Vətənimizin azadlığı uğrunda canlarını belə əsirgəməyəcəklərinə söz verdiklərini qeyd etdi. "Bir neçə dəqiqə bundan öncə Hərbi andı qəbul edən biz gənc əsgərlər Ana Vətənimizin rəşadətli müdafiəçiləri sırasına daxil olduq. Artıq biz də özümüzü Vətənimizin müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində duran Azərbaycan əsgəri adlandıra bilərik. Bu nə qədər fəxrlə səslənirsə, bir o qədər də bizim üzərimizə məsuliyyət qoyur. And içdiyimiz kimi, Vətənimizin keşiyində ayıq-sayıq dayanacaq, bu yolda qanımızı və canımızı əsirgəməyəcəyik.

Əynimizə hərbi libası geyinib, xidmət etdiyimiz qısa vaxt ərzində Azərbaycan Ordusunun yaranma və formalaşma tarixi, keçdiyi döyüş yolu, ata və babalarımızın qanları ilə yazdıqları qəhrəmanlıq salnaməsi ilə tanış olduq.

Bu gün mən gənc əsgərlərin adından bir daha sizləri əmin edirəm ki, əcdadlarımızın şanlı döyüş ənənələrini bundan sonra da davam və inkişaf etdirəcək, Azərbaycanımızın üçrəngli bayrağının Vətənimizin dilbər guşəsi olan Qarabağımızda, Şuşamızda, Xankəndimizdə... dalğalanması üçün düşmənlərimizi məhv etməyə hər an hazır olacağıq."

Sonda tədbir "Biz qalib gələcəyik" şeirinin səsləndirilməsi və kəşfiyyat qrupunun nümunəvi çıxışı ilə başa çatdı.

**Kapitan
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**



Yay olsa da havada arzulanan, könüləyatımlı bir mülayimlik, bir həlimlik, bir canyandırma var. Adi avqust gününü adi olmayan səviyyədə duyğusallıqla yaşayanlar bunu daha həssaslıqla hiss edirlər. Bilirlər ki, belə bir gündə hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısındakı qələbəlik bir sevgiyə görədi, bu sevgi Vətənə görədi - hərbi hissələrdə gənc əsgərlərin andiçmə günüdü. Bu günün mahiyyətində izah edilməsinə ehtiyac olmayan bir hikmət var - hərbi xidmətə gedən gündən çağırışçının özü də, əzizləri də bu günün şirin intizarını yaşayır...

Hərbi xidmət təkcə çağırışçının rəsmən əsgərləşməsi prosesinin başlanğıcı deyil, həm də ictimaiyyətin marağında olduğu sosial-ictimai hadisədi; çağırışçı hərbi xidmətə çağırılır, ictimaiyyətin nümayəndəsi olan, ictimaiyyəti təmsil edən valideynlərin sevinci kükrəyir, illərlə arzulanan günün sevinci ürəkləri silələyir. Bu kükrəmə, həm də bu səviyyədə kükrəmə könül xoşluğudu. Hərbi xidmətə başlayan çağırışçının özünə də, əzizlərinə də, cəmiyyətə də. Ata-ana oğlunun boya-başa çatdığına sevinir, hərbi xidmətə yararlı olduğuna sevinir. Bu sevincin özü də Vətən üçündü, işığı da. Valideynlərin xeyir-duasına qarışan bu işıq gənc əsgər olacaq çağırışçının uğuruna səpələnir...

Oğullar əsgər gedir...

Oğullar əsgəri mükəlləfiyi - Vətən borcunu yerinə yetirməyə gedir, bu borcu yerinə yetirir, əsl vətəndaş kimi formalaşır. Bunun kimi gərəkli amillərə görə hərbi xidmət həmişə ictimaiyyətin diqqət mərkəzində olub.

Bu gün hərbi hissələrdə gənc əsgərlər and içir. Bu, Vətənə sədaqət andıdı. Valideynlər də, ictimaiyyətin nümayəndələri də mərasimin başlayacağı anın intizarındadı. Bu intizar təkcə əzizini görməyə görə deyil, bu intizar həm də nizami yerişi, inamlı baxışı, vüqarlı duruşu görməyin intizarıdı, gənc əsgərlərin sırasında oğlunu tanıya bilməyən anaların qibtə ediləcək narahatlığının intizarıdı. Bizim narahatlığımız - intizarımız bu intizarı könlümüzə köçürməyə görədi...

Nəzarət-buraxılış məntəqəsinin qarşısında narahatlıqla gəzişən valideynlərlə söhbətləşməyi qərara alıram.



Əsgər atası Kərim Şərifov dedi ki, mən 1994-cü ildə Horadiz əməliyyatından sonra hərbi xidmətə çağırılmışdım. "Hərbi and içdiyim günü heç zaman unutmaram. Həmin gün atam dedi ki, bu gündən Vətənin oğlu olursan. Eyni sözləri 25 ildən sonra mən oğlum Farizə, Farizin əsgər yoldaşlarına deyirəm: Elə xidmət edin ki, sizinlə biz də fəxr edək, Vətən də fəxr etsin. Biz əsgər olanda belə yüksək şərait yox idi. Sizə belə şərait yaradılıb. Bu şəraitə görə sizin məsuliyyətlə, Hərbi Nizamnamələrin tələblərinə uyğun xidmət edəcəyinizə hamımız inanırıq. Ona da inanırıq ki, komandirlərinizin bütün əmr və göstərişlərini vaxtında, məsuliyyətlə və sözsüz yerinə yetirəcəksiniz."

Üç-dörd addım aralıda dayanmış ağsaqqal söhbətimizə qoşuldu:

- Nəvəm Hərbi and içəcək. Mən sovet ordusunda xidmət etmişəm, oğullarım Azərbaycan Ordusunda xidmət edib. İkisi də Qarabağ müharibəsi veteranıdı. Bu gün əsgərlərə yaradılmış şəraiti nə mən görmüşəm, nə də oğullarım. Bunu nəvəmə atası da deyib, mən də demişəm.

Tədbir başladı...

General-mayor Xəqani Cəbrayılov tədbirin mahiyyətindən danışaraq qeyd etdi ki, gənc əsgərlərin andiçmə mərasimi ordu quruculuğunda mühüm tədbirlərdəndir və Hərbi and içən əsgərin də, ictimaiyyətin nümayəndələrinin də yaddaşına hopur. Bu gün onların da, ictimaiyyətin də könül xoşluğuyla yaşadığı gün olur. Belə günün təntənəsindəyik. 2016-cı ilin Aprel döyüşləri hərbçilərlə bərabər, ordu ilə ictimaiyyətin birliyinin səviyyəsini də təsdiqlədi. Bugünkü tədbirə maraq həmin birliyin təzahürüdü. Hərbi and içəcək əsgərləri də, onların əzizlərini də hərbi hissənin komandanlığı adından təbrik edirəm...

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani gənc əsgərləri də, onların valideynlərini də bu münasibətlə təbrik etdi.

**(Ardı 6-cı səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunda andiçmə mərasimi

(Əvvəli 5-ci səhifədə)

Əsgər atası Emin Məmmədli çıxış etdi:

- İstər yerli, istərsə də xarici hərbi ekspertlər deyir ki, son illər Azərbaycan Ordusunda həyata keçirilmiş irimiqyaslı islahatlar nəticəsində şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığı kifayət qədər yüksəlib. Bu ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Mən oğlumun timsalında Hərbi and içən əsgərlərə deyirəm ki, sizin bu ordunun adına layiq nümunəvi xidmət edəcəyinizə hamımız inanırıq. Ona da inanırıq ki, ailənizə qalib əsgər kimi qayıdacaqsınız.

Gənc əsgərlər adından Tunar Abdulxalıqov çıxış etdi. Bir qədər həyəcanlı olduğunu hiss etmək çətin deyil. Təntənənin həyəcanıdı, komandirlərinin, zabitlərin, hərbi hissənin komandanlığının, əsgər yoldaşlarının tanımadığı valideynlərinin, əzizlərinin qarşısında çıxış etməyin həyəcanıdı. Vaxt gələcək müxtəlif tədbirlərdə çıxış etmək onun üçün də adiləşəcək, onda daha qətiyyətlə, həyəcansız danışacaq:

- Bu tədbirə ata-anam da gəlib, kiçik qardaşım da. Onlara, onların timsalında tədbirdə iştirak edən bütün ata-analara, komandirlərimizə əsgər yoldaşlarımın adından söz verirəm ki, Hərbi Nizamnamələrin tələblərinə ciddi əməl edəcəyik...

Gənc əsgərlərin nizami yerişi özü boyda könül xoşluğuna döndü...

Tədbir maraqlı konsert proqramıyla başa çatdı...

Bu gündən gənc əsgərlərin hərbi xidmətinin yeni mərhələsi başlayır. Həm də daha məsuliyyətli...

İnanıram ki, gənc əsgərlər Ali Baş Komandanın əmriylə torpaqlarımızın işğaldan azad olunması uğrunda gedəcək döyüşlərdə iştirak edəcək, Böyük Qələbənin əsgərləri olacaqlar...

... Yay olsa da havada könüləyatımlı bir mülayimlik var...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**





Səhər saatlarında "N" hərbi hissəsinin qarşısında canlanma hiss olunur. Azərbaycanın müxtəlif bölgələrindən gələn valideynlər və ictimaiyyət nümayəndələri nəzarət-buraxılış məntəqəsinin qarşısına toplaşıblar. Çox keçmir ki, andiçmə mərasimini yaxından izləmək üçün valideynlər hərbi hissəyə dəvət edildi.

Polkovnik Siyavuş Mustafayevin qarşılanması ilə təntənəli mərasim başladı. Çıxış üçün söz alan zabit bildirdi ki, bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində gündən-günə möhkəmlənir, döyüş qabiliyyətini artırır. Çıxışında Müdafiə Nazirliyi rəhbərliyinin Azərbaycan Ordusunun şəxsi heyətinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirən polkovnik S.Mustafayev qeyd etdi ki, bu diqqət və qayğını öz xidmətində hiss edərək hərbi hissəmizin şəxsi heyəti öhdəsinə düşən döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazırdır.

Əsgərlər qarşısında çıxış edən millət vəkili Siyavuş Novruzov qeyd etdi ki, hər bir azərbaycanlının ən böyük arzusu Ermənistanın işğalı altında olan torpaqlarımızın işğaldan azad olunması və bayrağımızın Dağlıq Qarabağımızda dalğalanmasıdır. "Qurban bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Hər bir vətəndaş bu bayramı öz qəlbində, evində, obasında, ailəsində qeyd edir. Bu əziz gündə hər birimizin bir arzusu var - torpaqlarımız işğaldan azad olunsun. Bu arzunu həyata keçirəcək bir qüvvə var - Azərbaycan Ordusu. Bu gün Azərbaycan Ordusunda qazanılan nailiyyətlər, aparılan islahatlar, ordumuzun əldə etdiyi Aprel və Günnüt zəfərləri sübut edir ki, Böyük Qələbəyə çox az bir zaman qalıb. İnanırıq ki, tezliklə ordumuz xalqımızın arzusunun həyata keçməsinin qarantı olacaq, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edəcək və üçrəngli bayrağımız ata-baba yurdlarımızda dalğalanacaq."

Gənc əsgər Azad Məmmədli qeyd etdi ki, şəhid olan oğulların qanı ilə yazılmış Hərbi andı qəbul edərək Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağımıza söz verdik: "Sizi əmin edirik ki, biz gənc əsgərlər Vətən yolunda qəhrəmanlıq göstərmiş Azərbaycan oğullarının döyüş yolunu şərəflə davam etdirəcək, Aprel və Günnüt zəfərləri zamanı Azərbaycan Ordusunun düşmən üzərində əldə etdiyi qələbəni davam etdirmək üçün hər an əldə silah hazır olacağıq".

"Azərbaycan Ordusunun inkişafını bu gün burada əyani şəkildə gördük", - deyə əsgər nənəsi Şərafət Məmmədova çıxışı zamanı bildirdi. - Biz hər birimiz bir valideyn kimi övladlarımızın təmiz və rahat şəraitdə xidmət etməsinə çox sevindik. Belə şəraitdə xidmət edən əsgər Vətən qarşısında olan borcunu layiqincə yerinə yetirməli, Azərbaycan xalqına Böyük Qələbəni bəxş etməlidir. Ordumuz Qələbəni bizlərə bəxş etməyə qadirdir. Xalq ordusuna inanır, ordu isə xalqına arxalanır. Ordu ilə xalqın birliyindən yaranan vəhdət isə gözlənilən Qələbəni tezləşdirəcək.

Əsgər atası Elxan Məmmədov da Azərbaycan Ordusunun bugünkü qüdrətindən qürur duyaraq, inandığını bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarındadır. Elxan Məmmədov müharibə veteranı olsa da, müharibəyə nifrət edir, istəmir heç zaman insan qanı axıdılsın, yurdlar xarabalığa dönsün. Ancaq qətiyyətlə dedi ki, düşmən torpaqlarımızdan çəkilib getməsə, yaşının bu dönəmində lazım gələrsə yenidən hərbi libasını geyinməyə, keçmiş döyüş yoldaşları ilə çiyin-çiyinə torpaqlarımızın azadlığı uğrunda savaşlara qatılmağa hazırdır. Ömrün mənasını Vətənə xidmətdə görən E.Məmmədov bu gün əsgər atası olmasının sevincini yaşayır. İnanır ki, əsgər olması ilə ona sevinc bəxş edən oğlu tarixi Qələbənin də sevincini ona bəxş edəcək.

Tədbir əsgər yeməkxanasında Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və incəsənət nümayəndələrinin şəxsi heyət qarşısında maraqlı konsert proqramı ilə başa çatdı.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



"N" hərbi hissəsində keçirilən təntənəli andiçmə mərasimi böyük marağa səbəb oldu. Valideynlərin, ictimaiyyət nümayəndələrinin və digər qonaqların iştirakı ilə baş tutan tədbir ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsinin qoyulması ilə başladı.

Gənc əsgərlər silah və yoldaşlarından tutaraq, Vətənə sədaqət andı içərək, canları bahasına torpaqlarımızın hər qarışı uğrunda döyüşəcəklərinə and içdilər.

General-mayor İlqar Lətifov çıxış edərək əlamətdar gün münasibətilə bütün əsgərləri təbrik etdi.

- Sizi andiçmə günü münasibətilə təbrik edir, ən xoş arzularımı bildirirəm. Əziz əsgərlər, bu gün sizlərin həyatında əlamətdar günlərdən biridir. Sizlər Azərbaycan Ordusu sıralarına daxil olaraq Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağınıza and içdiniz. Hərbi and Azərbaycan Ordusunun hər bir əsgər və zabiti üçün Vətən qarşısında dönməz sədaqət ifadəsidir, pozulmaz qanundur, hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərinin içdiyi andı pozmağa məcbur edə bilməz. Müasir Azərbaycan Ordusunun yaradıcısı ümummilli liderimiz Heydər Əliyevin apardığı uğurlu ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusu yenidən elmi əsaslarla quruldu, ordumuzda vahid komandanlıq prinsipi təmin edildi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan Ordusu döyüş və mənəvi-psixoloji hazırlığı ilə yeni-yeni nailiyyətlər qazanır. Əminəm ki, hər biriniz güclü və qüdrətli Azərbaycan Ordusunun sırasına qatılmaqdan qürur duyur və qürrələnirsiniz. Sonda hər birinizə demək istəyirəm ki, hərb işinə dərindən yiyələnin, komandir və rəislərin əmr və tapşırıqlarına vaxtında əməl edin, öz xidməti vəzifənizin öhdəsindən layiqincə gəlin.

Zabitlər Elzamin Behbudov, Elşad Əbilov, Sumqayıt şəhər İcra Hakimiyyətinin nümayəndəsi Fərman Kazımov, ictimaiyyət nümayəndələri və digər qonaqlar öz çıxışları zamanı gənc əsgərləri təbrik edərək öz tövsiyələrini çatdırdılar.

Mərasimin rəsmi hissəsi əsgərlərin tribuna önündən keçidi ilə başa çatdı.

Gənc əsgərlərin öz valideynləri ilə görüşdükləri məqam duyğulu anlara şahid olmağıma səbəb oldu. Kimisi atasının önündə fəxrlə dayanıb "Görürsən, oğlun böyüdü və əsgər oldu", kimisi də "Qarabağı bizlər azad edəcəyik" deyirdi.

Anasına bərk-bərk sarılıb "Fəxr et ki, Azərbaycan əsgəriyəm", - deyən əsgər diqqətimi cəlb etdi. Yaxınlaşıb həmsöhbət oldum. Əsgər Talıblı Nihal Goranboy rayonundan hərbi xidmətə çağırılıb. Yaradılan şərait, komandirlərin diqqət və qayğısından ürəklə söz açan əsgərin fikirləri də üzündəki sevinc qədər qürurluydu.

Nihalın anası Elnurə xanım da öz fikirlərini bölüşdü.

- Bu gün övladlarımız həyatlarının yeni mərhələsinə qədəm qoydular. Hərbi and içdilər, bizlərə böyük sevinc hissi yaşatdılar. Burada olsa atası Vüqar da belə sevinərdi. Nihalı ordu sıralarına vətəndaşlıq borcunu yerinə yetirməyə yola saldım. Bu gün oğlum hərbi mundirdə komandirlər və valideynlər qarşısında Hərbi and içəndə yaşadığım sevinc əvəzedilməzdir. Hərbi hissələrdə əsgərlərimiz üçün olduqca gözəl şərait yaradılıb. Mən ana kimi, bütün əsgər anaları adından belə şəraitə görə orduya həmişə diqqət və qayğı göstərən möhtərəm Prezidentimizə minnətdarlığımı bildirirəm. Bütün əsgərlərə demək istəyirəm ki, Qarabağı azad edin və torpaqlarımızı işğalçılardan qoruyun.

Andiçmə mərasimindən sonra hər bir gəncin Azərbaycan əsgəri olmasından qürurlandığına bir daha əmin oldum...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Müdafiə Nazirliyi Rusiya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyquya başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Arxangelsk vilayətində yerləşən hərbi poliqonda baş vermiş hadisə nəticəsində "Rosatom" şirkətinin əməkdaşlarının faciəvi şəkildə həlak olması barədə xəbər məni dərindən sarsıtdı.

Azərbaycan Ordusunun şəxsi heyəti adından və şəxsən öz adımdan həlak olanların ailələrinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara tezliklə sağalmalarını diləyirəm.

Baş vermiş faciədən Sizinlə birlikdə kədərlənirik".

## Heydər Əliyev adına Hərbi Liseyin məzunları təhsillərini davam etdirmək üçün Bakıya yola salınıblar

*Heydər Əliyev adına Hərbi Liseydə keçirilən yolasalma mərasimində Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək ali hərbi təhsil almaq hüququ qazanan kursantlara uğurlar arzulayıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bildirilib ki, 56 kursantla fəaliyyətə başlayan hərbi liseyin 3 mindən artıq məzunu ötən dövr ərzində ölkəmizdə və xaricdə ali hərbi məktəblərə qəbul olunublar.

Hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrində liseyin 2 minə yaxın məzunu zabit kimi xidmət edir. Bu gün hər birimizi daha da qürurlandıran Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının ordu sıralarında şərəflə və məsuliyyətlə xidmət etmələridir.

Sonra gələcəyin zabitlərinin təntənəli keçidi olub. Beləliklə də, ali hərbi təhsil almaq hüququ qazanan kursantlar Bakı şəhərinə yola salınıblar.

## Naxçıvan qarnizonu qoşunlarında gənc əsgərlərin andiçmə mərasimləri keçirilib



*Naxçıvan qarnizonu qoşunlarında iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.*

Əlahiddə Ümumqoşun Orduda keçirilən andiçmə mərasimində Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Tədbirdə çıxış edənlər gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik ediblər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Elman Orucov Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, intizamlı Vətən müdafiəçisi olmaq üçün hər bir əsgər üzərinə düşən vəzifələri şüurla yerinə yetirməli, silah və texnikanın sirlərinə dərindən yiyələnməli, fiziki və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olmalı, komandirləri tərəfindən öyrədilənləri dərindən mənimsəməlidir.

Təbrik oxunduqdan sonra şəxsi heyətin təntənəli keçidi olub.

Hərbi hissələrdə şəxsi heyətin məişət şəraiti ilə tanış olan əsgər valideynləri yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib və övladlarının Hərbi andı qəbul etmələrindən qürur hissi keçirdiklərini ifadə ediblər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

## Əlahiddə Ümumqoşun Orduda bölük, batareya komandirləri və müavinləri ilə toplantı keçirilib

*Komandir hazırlığı sistemi çərçivəsində Əlahiddə Ümumqoşun Orduda bölük, batareya komandirləri və müavinləri ilə növbəti toplantı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nəzəri və praktiki məşğələlərin keçirildiyi üçgünlük toplantıda əsas məqsəd zabitlərin ixtisas hazırlıqlarının təkmilləşdirilməsi olub.



## Cəmşid Naxçıvanskinin şərəfli ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir

*Ötən əsrin 20-30-cu illərində milli hərbi kadrların yetişdirilməsində, Vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsində xüsusilə sərkərdələrimizin danılmaz xidmətləri olub. Azərbaycanın hərb tarixində görkəmli rol oynamış belə sərkərdələrdən biri də Cəmşid Naxçıvanskidir.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu barədə Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində general-mayor Cəmşid Naxçıvanskinin anadan olmasının 124-cü ildönümü münasibətilə keçirilən tədbirdə bəhs olunub.

Tədbirdə çıxış edən muzey kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova milli hərb tariximizin görkəmli nümayəndələrinin həyat və fəaliyyətinin tədqiqi və təbliğinin əhəmiyyətindən danışıb.

Cəmşid Naxçıvanskinin ev-muzeyinin direktoru Abasət Nuriyev çıxışında qeyd edib ki, Cəmşid Naxçıvanski 10 avqust 1895-ci ildə Naxçıvan şəhərində ehtiyatda olan zabit Cəfərqulu xan Naxçıvanskinin ailəsində dünyaya göz açıb. 12 yaşı olarkən hərbi təhsil alması üçün atası Cəmşidi Tiflis Kadet Məktəbinə gətirib. Cəmşid burada 7 il ilkin hərbi təhsil aldıqdan sonra 1914-cü ildə Qərbi Ukraynanın Yelizavetqrad şəhərindəki Qvardiya Məktəbinə daxil olub.

"1914-cü ilin dekabrında Cəmşid Naxçıvanskiyə praporşik hərbi rütbəsi verilərək çar Rusiyasının müsəlmanlardan təşkil etdiyi Qafqaz Süvari Diviziyasına xidmətə göndərilib. 1915-ci ilin qışında Cəmşid xan süvari alayı ilə birlikdə I Dünya müharibəsinin cənub-qərb cəbhəsində gedən qızğın döyüşlərə qatılıb. Bu müharibə zamanı Brusilov cəbhəsinin yarılması, Kosovo, Novoselka kəndləri və Lutks şəhəri uğrunda, İnquş Süvari Alayının mühasirədən azad edilməsi əməliyyatında və onlarla digər döyüşlərdə Cəmşid Naxçıvanski qəhrəmanlıqla vuruşub", - deyən Abasət Nuriyev vurğulayıb ki, Cəmşid Naxçıvanski 4 il davam edən bu amansız döyüşlərdə 3 dəfə ağır yaralanıb, hərbi hospitallarda müalicə alaraq təkrar döyüşlərə qatılıb. Cəmşid Naxçıvanskinin döyüş meydanlarında göstərdiyi cəsarət və igidlik imperiya rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib, hədiyyələrlə mükafatlandırılıb.

Sonra həmin muzeyin baş fond mühafizi-elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynovanın, "Xan Sarayı" Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin baş fond mühafizi-elmi işçisi Zülfiyyə Əliyevanın çıxışları dinlənilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

# Hərbi hissələrdə Qurban bayramı qeyd edilib

*Qurban bayramı İslam dininin müqəddəs bayramlarından biridir. Əsrlər boyu xalqımız Qurban bayramını böyük sevinc və coşqu hissi ilə qarşılamış, qurbankəsmə mərasimini öz milli adət-ənənəsinə, mənəvi dəyərinə çevirmişdir.*



Bu dəyərlərdən, əsasən, qonaqpərvərlik, rəhmlilik, xeyriyyəçilik, kimsəsizlərə baş çəkmək, başqalarının dərdinə şərik çıxmaq xalqımızın sahib olduğu mənəvi zənginliklərdəndir. Qurban bayramına məxsus ənənələrin, məsələn, qurbanlıq heyvanın bir müddət qabaq bəslənməsi, Allah yolunda kəsilərək, əsasən, imkansız ailələrə paylanması, bayram süfrələrinin təşkil edilməsi və sair xalqımıza məxsus dəyərlərlə üst-üstə düşdüyündən bu bayram ölkəmizdə daha təmtəraqlı qeyd edilir. Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası milli və dini bayramlarını dövlət səviyyəsində keçirməyə nail olmuş, xalqımız adət-ənənələrinə, dəyərlərinə möhkəm bağlanmış, əldə etdiyi bir çox demokratik prinsiplərlə yanaşı, müqəddəs bayramlarını da azad şəkildə keçirmək hüququ qazanmışdır.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslami dəyərlərin və bununla bağlı mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Ulu Öndər bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: "Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".



Bu mübarək bayram dinimizin bir sıra fəzilətlərini özündə əks etdirir. İmkanlı müsəlmanların qurban kəsib imkansızların ehtiyaclarını, qismən də olsa, ödəməsi xeyirxahlığın təzahürüdür. Allaha xoş gələn bu əməl Qurban bayramında özünü daha qabarıq şəkildə büruzə verir. Qurban ətinin paylanması insanların bir-birinə kömək etməsinin vacibliyinə dəlalət edir.

Dini bayramlar mövzusu həmişə aktual olub, xüsusilə Qurban bayramının qeyd edilməsi məsələsində maarifçi yanaşma, dini məqamların doğru şəkildə insanlara çatdırılması olduqca əhəmiyyətlidir. Qurban bayramı bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Bu baxımdan bayramın mahiyyətini qorumaq bizim ən ümdə vəzifəmizdir.

Ənənəvi bayramlardan fərqli olaraq, Azərbaycanda Qurban bayramı İslam dini təsəvvürləri ilə əlaqədar təşəkkül tapıb, eləcə də əhatəliliyinə görə bu bayram digərlərindən heç də geri qalmır. Azərbaycan müstəqillik qazandıqdan sonra Qurban, Ramazan bayramları ümumxalq bayramları sırasına daxil olub. Müsəlmanların Qurban və Ramazan bayramlarını qeyd etməsi ümumi vəhdət prinsipinə əsaslanır və burada dindar, yaxud qeyri-dindarlığın çalarlarını axtarmaq düzgün olmazdı. Bu bayramda istənilən dindən olan kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Bu gün respublikamızda yaşayan müxtəlif dinlərin nümayəndələrinin dini bayramlarını öz ənənələrinə uyğun şəkildə qeyd etmələri üçün yüksək şərait yaradılıb. Ölkəmizdə bayramlar həmrəylik nümunəsinə çevrilib, sosial səviyyəsindən, mədəni, etnik müxtəlifliyindən asılı olmayaraq bütün insanlar bu bayramı vəhdət halında yüksək səviyyədə qeyd edirlər.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət, xeyirxahlıq duyğuları aşılayır. Müsəlmanlar bir-birinə daha yaxın, daha məhrəm, daha mehriban olurlar. Bu bayram insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız - cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir.

Milli-mənəvi, İslami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmişdir. Dövlət başçısının Qurban bayramı münasibətilə bu il Azərbaycan xalqına təbrikində deyilir: "Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır".

Müsəlman dünyasının ən əziz bayramlarından olan Qurban bayramı bu il Azərbaycanda da böyük təmtəraqla keçirilir. Bu zaman hər bir insan öz xeyirxah əməlləri ilə ehtiyacı olan insanlara yardımlar edir, onlara kəsdikləri qurbanlardan pay göndərir.

Qurban bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramı kimi dərin tarixə malikdir və hər il dünya müsəlmanları tərəfindən qeyd edilir. Bu bayram özü ilə hamıya saflıq, təmizlik gətirir. İslamda qurbanlıq ayini xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun ən gözəl xüsusiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir.

Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində Qurban bayramı münasibətilə tədbirlər keçirilib.

Tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbrikləri şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların iştirakı ilə qurbanlar kəsilib, onlar üçün bayram süfrələri təşkil olunub və mədəni kütləvi proqramlar nümayiş etdirilib.

* * *



2016-cı ilin Aprel döyüşləri ordu-ictimaiyyət münasibətlərini kifayət qədər yüksək səviyyəyə çatdırdı. Bir daha təsdiqləndi ki, xalq orduya güvənir, inanır, ordu xalqa arxalanır. Bu baxımdan ordu cəmiyyətin mühüm tərkib hissələrindəndir, ordu ilə bağlı olan istənilən informasiya, fakt, hadisə ictimaiyyətin də diqqətini çəkir. İctimaiyyət orduda yeniliklərə olduqca həssas münasibət göstərir. Bu, ehtiramın, sevginin təzahürüdür.

Bütün bayramlar cəmiyyətin mühüm tərkib hissələrindən biri olan orduda da yüksək səviyyədə qarşılanır. Tədbirlərin birgə keçirilməsi ordu-ictimaiyyət münasibətlərinin yüksək səviyyədə olduğunu xarakterizə edir. "N" hərbi hissəsində Qurban bayramı belə qarşılıqlı ehtiramla qeyd edildi.

Ulu öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycanın Dövlət himni ifa edildi.

Tədbiri polkovnik-leytenant Rasim Manafov açaraq Qurban bayramının tarixindən, mahiyyətindən, aşıladığı fəzilətlərdən, sosial münasibətlərə təsirindən, dünyagörüşün formalaşmasında əhəmiyyətindən, bəşəriliyindən danışaraq qeyd etdi ki, belə bayramlar hərbi hissələrdə yüksək səviyyədə keçirilir. Bu kimi tədbirlərin ruh yüksəkliyi ilə qeyd olunması şəxsi heyətin mənəvi-psixoloji hazırlığında böyük əhəmiyyətə malik olur, onların döyüş əzmini yüksəldir, qələbə ruhunu artırır. Həmişə olduğu kimi, bu il də hərbi hissələrimizdə Qurban bayramını şəxsi heyət könül xoşluğu ilə qarşılayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya böyük diqqət və qayğısı hər bir əsgərin və zabitin hərbi xidmətə məsuliyyət hissini artırmışdır. Hər bir hərbi qulluqçunun hərbi xidmət amalı torpaqlarımızın işğaldan azad edilməsidir.

Builki Qurban bayramında qurbanlar bizim hərbi hissədə də gələn il qurbanlarımızın işğaldan azad edəcəyimiz ərazilərdə kəsilməsi niyyətiylə kəsilir..."

Bayram ovqatı həmişə musiqi ilə tamamlanır. Builki Qurban bayramında da ictimaiyyətin nümayəndələri hərbçilərə belə bir mənəvi sovqat bəxş etdilər. H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkil etdiyi konsert proqramı hərbi hissənin şəxsi heyətinə böyük könül xoşluğu, gözəl bayram ovqatı yaşatdı.

Hərbi hissədə qurbanlar kəsildi.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# "Beynəlxalq Ordu Oyunları-2019"

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsi başa çatıb.

Yarışların nəticələrinə və hakimlərin qərarına əsasən 12 komandanın qatıldığı müsabiqədə toplanılan ballara uyğun olaraq Qazaxıstan komandası birinci, Rusiya komandası ikinci, Özbəkistan komandası üçüncü, Azərbaycan komandası isə dördüncü yerlərə layiq görülüblər.

"Artilleriya atəşinin ustaları" müsabiqəsinə təntənəli bağlanış mərasimi ilə yekun vurulub.

* * *



Moskva vilayətinin Alabino hərbi poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində "Səhra mətbəxi" müsabiqəsində Azərbaycan komandası finala vəsiqə qazanıb.

İştirakçı komandaların çörəkçiləri şirniyyat məmulatlarının hazırlanmasında öz məharətlərini nümayiş etdiriblər.

Hakimlərin qərarına əsasən Azərbaycan komandası 239 balla birinci yerdə, Qazaxıstan komandası 238 balla ikinci yerdə, Monqolustan komandası isə 234 balla üçüncü yerdə qərarlaşıb.

Bu günlərdə "Səhra mətbəxi" müsabiqəsinin son mərhələsi başa çatıb.

Yarışın son günündə iştirakçı komandalar çörək bişirmək üzrə bacarıqlarını nümayiş etdiriblər.

Beləliklə, "Səhra mətbəxi" müsabiqəsinin ümumi yekunlarına görə hakimlərin qərarına əsasən Rusiya Federasiyası birinci, Belarus ikinci, Qazaxıstan üçüncü, Azərbaycan komandası isə dördüncü yerdə qərarlaşıb.

* * *

Azərbaycan Ordusunun hərbi tibb işçilərinin də iştirak etdiyi "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsinin növbəti mərhələsi keçirilib.

Azərbaycan hərbi həkimləri "Estafetin ən yaxşı sürücü mexaniki" adı uğrunda mübarizədə digər ölkələrdən olan həmkarları ilə birlikdə bacarıqlarını nümayiş etdiriblər.

"Hərbi-tibbi estafet" müsabiqəsində hərbi həkimlər "Yaralanan və xəsarət alan heyətin döyüş meydanından təxliyə edilməsi" mərhələsində bacarıqlarını sınayıblar.

Səhra şəraitində baş tutan yarışda hərbi həkimlər yaralı və xəsarət alan hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilməsi, onun şərti düşmənin atəşi altından çıxarılaraq ixtisaslı yardımın göstəriləcəyi məntəqəyə çatdırılması və digər tapşırıqları normativlərə uyğun olaraq icra ediblər.

* * *

Moskva vilayətinin Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən Azərbaycan tankçıları finala bir pillə də yaxınlaşıb.

Yarışın nəticələrinə əsasən estafeti birinci yerdə Qazaxıstan, ikinci yerdə Azərbaycan, üçüncü yerdə Çin və dördüncü yerdə Serbiya komandası başa vurub.

"Tank biatlonu" müsabiqəsində finala vəsiqə qazanan tankçılarımız son hazırlıqlarını başa vurublar.

Tank heyətləri və texniki dəstək qrupu tərəfindən final estafetində istifadə olunacaq döyüş maşınlarına baxış keçirilib.

Heyətlərimiz döyüş maşınlarını yoxladıqdan sonra, tankın ştat silahlarından yoxlama atışları da icra ediblər.

Püşkatmanın nəticəsinə əsasən Azərbaycan tankçıları avqustun 17-də keçiriləcək final estafetində birinci divizionda Rusiya, Belarusiya və Qazaxıstan komandaları ilə mübarizə aparacaq.

* * *

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsinin dördüncü mərhələsi icra edilib.

"Beynəlxalq qarışıq snayper cütlüklərinin dueli" mərhələsinin icrası zamanı Qırğızıstan və Monqolustan komandalarından olan snayperlər ilə bərabər yarışan komandamızın snayperləri müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.

* * *

Moskva vilayətindəki "Patriot" parkında yerləşən Azarkeşlər klubunda "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında bir qrup hərbi qulluqçu müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb.

Mükafatlandırılanlar arasında "Tank biatlonu" müsabiqəsində ölkəmizi təmsil edən gizir Samir İsgəndərov medalla və "Səhra mətbəxi" müsabiqəsində iştirak edən müddətdən artıq həqiqi hərbi xidmət qadın hərbi qulluqçusu əsgər Sona Həmzəyeva qiymətli hədiyyə ilə təltif olunublar.




"Dəniz Kuboku-2019" müsabiqəsində iştirak edən ölkələrin hərbi dənizçiləri Xəzər dənizinin döyüş hazırlığı poliqonunda "Artilleriya atışlarının yerinə yetirilməsi üzrə yarış" mərhələsində "Üzən minaya artilleriya atışı" tapşırığını yerinə yetiriblər.

Bu mərhələdə gəmilər hərəkətdə olarkən artilleriya atəşi ilə mina hədəfinin məhv edilməsi tapşırığını uğurla həyata keçiriblər. Atışlar 200 metr məsafədən icra olunub.

Beynəlxalq hakimlər briqadası gəmilərin vaxtında gəlməsi və hədəflərin məhv edilməsi üzrə qiymətləndirmə aparıblar. Qərara əsasən Azərbaycan və Rusiya komandaları 40 balla birinci, Qazaxıstan 36 balla ikinci, İran komandası isə 18 balla üçüncü yerə layiq görülüb.

Müsabiqə çərçivəsində hərbi gəmilərin heyətləri arasında mini-futbol yarışı keçirilib.

İlk görüşdə İran komandası ilə qarşılaşan Rusiya hərbi dənizçiləri qalib gəlib. Azərbaycan və Qazaxıstan komandalarının oyunu isə dənizçilərimizin qələbəsi ilə başa çatıb.

Final oyunlarında Azərbaycan komandası Rusiya dənizçilərinə, İran hərbçiləri isə Qazaxıstan komandasına qalib gəlib.

Beləliklə, futbol üzrə dostluq turnirinin yekununa görə Azərbaycan birinci, Rusiya ikinci, İran komandası isə üçüncü yerə layiq görülüb.

Qalib komandalara kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

Sonda xatirə şəkli çəkdirilib.

"Dəniz Kuboku-2019" müsabiqəsinin "Artilleriya atışlarının yerinə yetirilməsi üzrə yarış" mərhələsində "Kiçik ölçülü dəniz hədəfi üzrə artilleriya atışı" çalışmasını yerinə yetiriblər.

Çalışmanın icrası zamanı dəniz hədəfi qismində xüsusi quraşdırılmış gəmi lövhəsi istifadə edilib. Atışlar təxminən 3000 metr məsafədən artilleriya qurğularından yerinə yetirilib.

Beynəlxalq hakimlər briqadasının qərarına əsasən, Rusiya komandası 40 balla birinci, Azərbaycan 36 balla ikinci, Qazaxıstan 33 balla üçüncü, İran komandası isə 18 balla dördüncü yerə layiq görülüb.



Ekipajlar hava hədəflərinə artilleriya atışları da yerinə yetiriblər.

Bu mərhələdə komandalara şərti düşmən təyyarəsi gəmiyə aviasiya bombası atdıqdan sonra hava hədəfinin artilleriya atəşləri ilə məhv edilməsi tapşırılıb.

Gəmilərin vaxtında gəlməsinə və hədəflərin məhv edilməsinə görə beynəlxalq hakimlər briqadası tərəfindən qiymətləndirmə aparılıb.

Mərhələnin nəticələrinə əsasən, Azərbaycan komandası 38 balla birinci, Rusiya 19 balla ikinci, İran 16 balla üçüncü, Qazaxıstan dənizçiləri isə 12 balla dördüncü yerlərdə qərarlaşıblar.

"Dəniz Kuboku-2019" müsabiqəsinin "Dəniz hazırlığı" üzrə mərhələsində gəminin lövbərə və çəlləyə durması tapşırıqları icra edilib.

Beynəlxalq hakimlər briqadasının qərarına əsasən, bu mərhələ üzrə Rusiya 40 balla birinci, Azərbaycan 38 balla ikinci, İran 36 balla üçüncü, Qazaxıstan komandası isə 14 balla dördüncü yerə layiq görülüblər.

# Naxçıvan Qarnizonundan xəbərlər



Əlahiddə Ümumqoşun Orduda birinci eşelonda yerləşən artilleriya və minaatan bölmələri qəfil yoxlanılıb. Yoxlama zamanı "Həyəcan" siqnalı ilə qaldırılan bölmələr atəş mövqeyi rayonlarına və komanda müşahidə məntəqələrinə çıxarılaraq döyüş tətbiqinə hazırlanıb.

Atəş mövqeyi rayonlarından planlı və plandankənar hədəflərə döyüş atışları icra edilib. Sonra artilleriya və minaatan bölmələri ehtiyat atəş mövqeyi rayonlarına və komanda müşahidə məntəqələrinə yerdəyişmə edərək yeni aşkar olunmuş hədəfləri məhv ediblər.

Qəfil yoxlama zamanı əsas diqqət bölmələrin döyüş tapşırıqlarını yerinə yetirməsinə, şəxsi heyətin funksional vəzifələrinin icrasına və ixtisas hazırlığı üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

* * *



Əlahiddə Ümumqoşun Orduda tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib. Məşğələlərdə zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri və praktiki vərdişləri yoxlanılıb.

Əsas məqsəd zabitlərin əməliyyatı planlama vərdiş və səriştələrinin real tapşırıqlara uyğun təkmilləşdirilməsi, fərdi bacarıq və peşəkarlıq səviyyələrinin artırılması, yeni normativlər üzrə imtahanların qəbulu metodikasının işlənilməsi olub.

* * *



Əlahiddə Ümumqoşun Orduda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən zabitlərlə təlim-metodiki toplantı keçirilib.

Toplantıda əsas diqqət zabitlərin taktiki biliklərinin, qərar qəbuletmə bacarıqlarının artırılmasına, xidmətə düzgün istiqamətləndirilməsinə yönəldilib. Toplantı çərçivəsində Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərinə və muzeylərinə ekskursiyalar təşkil olunub. Həmçinin zabitlər Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, ön xətdəki mövqelərində şəxsi heyətin sosial-məişət və xidmət şəraiti ilə tanış olublar.

* * *



Muxtar respublikamızda ən çox ziyarət edilən məkanlardan olan açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyindəki eksponatların sırasına zenitraket kompleksləri və döyüş təyyarələri daxil edilib.

Ötən il 26 adda eksponatla fəaliyyətə başlayan Naxçıvan Döyüş Şöhrəti Muzeyində bu gün 36 adda silah, texnika və qurğu mövcuddur.

Hazırda muzeydə müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş və döyüş yolu keçmiş haubitsa, top və minaatanlar, "S-75", "S-125", "S-200" zenit-raket kompleksləri, "Mi-8T" döyüş-nəqliyyat vertolyotu, "SU-17" və "MİQ-21" döyüş təyyarələri, mühəndis texnikaları, tanklar, piyadanın döyüş maşınları, zirehli transportyorlar, dartıcılar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər nümayiş olunur.

Ümumi sahəsi 13 min kvadratmetr olan Naxçıvan Döyüş Şöhrəti Muzeyində hər bir döyüş texnikası audio-məlumatlandırma sistemi ilə təmin edilib.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# Azərbaycan komandası “Dəniz Kuboku-2019” beynəlxalq yarışlarının qalibi olub

"Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində Bakıda keçirilən "Dəniz Kuboku-2019" beynəlxalq yarışlarının başa çatması ilə əlaqədar avqustun 15-də mətbuat konfransı təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mətbuat konfransında iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlər iştirak ediblər.

Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, texniki dəstək qruplarının fəaliyyəti, hakimlər kollegiyasının işi və müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının göstəriciləri barədə ətraflı məlumat verilib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, birinci dərəcəli kapitan Sübhan Bəkirov bildirib ki, Bakıda baş tutan "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsi yüksək səviyyədə keçirilib: "Üç mərhələdə təşkil olunan yarışda Rusiya, Azərbaycan, Qazaxıstan və İran nümayəndə heyətləri iştirak ediblər. Bu yarışlar gərgin keçsə də, sonda dostluq qalib gəldi. Təlim-məşq toplanışında biz gələcəkdə birgə fəaliyyətlə bağlı təcrübə mübadiləsi aparmışıq. "Dəniz Kuboku-2019" yarışı zamanı hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyənləşdiriblər. Qərara əsasən, Azərbaycan komandası 212 balla birinci, Rusiya 186 balla ikinci, Qazaxıstan 142 balla üçüncü, İran 136 balla dördüncü yeri tutub".




S.Bəkirov deyib ki, beynəlxalq yarışların şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Rusiya Hərbi Dəniz Donanmasının komandasının "Dəniz Kuboku-2019" yarışlarına tam hazır olduğunu deyən bu ölkənin nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Sergey Yekimov yarışların Rusiya komandası üçün yaradılan yüksək şəraitə görə təşəkkürünü bildirib. O, bu yarışın Rusiya komandası üçün əhəmiyyətli olduğunu vurğulayaraq deyib: "Çox gərgin və maraqlı yarış keçdi. Azərbaycan dənizçiləri yüksək peşəkarlıq nümayiş etdirdilər. Azərbaycan komandasını qələbə münasibəti ilə təbrik edirəm. Oyunlar ən yüksək səviyyədə təşkil olunub. Dəniz kuboku hər zaman qarşılıqlı anlaşma və dostluq ruhu ilə fərqlənib. Bu, əsl dostluq yarışıdır. Rusiya bu oyuna həmişə böyük önəm verir".

İştirakçılara uğurlar arzulayan Qazaxıstan nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Kanat Niyazbekov Bakıda keçirilən "Dəniz Kuboku-2019" yarışına hazırlığın yüksək səviyyədə olduğunu bildirib: "Azərbaycan belə mühüm yarışı üçüncü dəfədir yüksək səviyyədə təşkil edib. Azərbaycan tərəfinə bunun üçün təşəkkür edirəm. On gün ərzində dənizçilər öz peşəkarlıqlarını ortaya qoydular. Gərgin keçən mübarizə şəraitində Azərbaycan komandası qalib gəldi. Mən bu qələbə münasibətilə Azərbaycan xalqını təbrik edirəm".

İran nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Hüseyn Həsəni yarışın əhəmiyyətini qeyd edərək vurğulayıb ki, hazırlıq çox gözəl təşkil olunub: "Bu yarışda yenidən iştirak etməkdən məmnunuq. Bu, dostluq yarışıdır. İlk öncə Azərbaycan xalqını qələbə münasibəti ilə təbrik edirəm. Biz burada olmaqdan çox şadıq. Bu yarışlar bizə təcrübə mübadiləsi aparmağa imkan yaradır. Xəzəryanı dövlətlər arasında bu cür tədbirlər çox faydalıdır. Eyni zamanda, bu tədbirlər Xəzəryanı dövlətlərdə ümumi mədəni təcrübəyə töhfə verir. Yarış Xəzəryanı dövlətlər arasında tərəfdaşlıq və dostluğun inkişafına təkan verir".

Sonra mətbuat nümayəndələrinin sualları ətraflı cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan hərbçiləri avqustun 3-dən 17-dək 10 dövlətin ərazisində keçirilən "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarında ölkəmizi təmsil edirlər. Belə ki, hərbi qulluqçularımız ölkəmizdə "Dəniz Kuboku", Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları", Belarusda "Snayper həddi" və Özbəkistanda "Hərbi-tibbi estafet" müsabiqələrində mübarizə aparırlar.

Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri "Dəniz Kuboku-2019" müsabiqəsində müşahidəçi qismində iştirak ediblər.

## Fərarilik etmiş erməni hərbi qulluqçu təmas xəttində bölmələrimiz tərəfindən saxlanılıb

Avqustun 12-si səhər saatlarında cəbhənin Füzuli rayonu istiqamətində düşmən tərəfindən fərarilik etmiş hərbi qulluqçu Kazaryan Aro Xaykoviç bölmələrimizin sayıqlığı nəticəsində saxlanılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ilkin dindirilmə nəticəsində müəyyən olunub ki, düşmən hərbçisinin fərarilik etməsinə səbəb xidmət etdiyi hərbi hissədə baş verən özbaşınalıq, hərbi qulluqçulara qarşı edilən dözülməz və qeyri-insani münasibətdir.

Erməni hərbi qulluqçu A.X.Kazaryanın uzun müddət ərzində dəfələrlə komandirləri və digər hərbi qulluqçular tərəfindən fiziki və mənəvi təzyiqlərə məruz qalması onun baş nahiyəsindəki hematomaları və bədənindəki yaralardan da aydın görünür.

Hazırda A.X.Kazaryana tibbi yardım göstərilir. Hadisənin araşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

## Hərbi birlikdə gənc zabitlərlə toplanış keçirilib




*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin hazırlıq planına əsasən, “N” hərbi hissəsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin nəzdində Ehtiyat Zabit Hazırlığı kursunu və Hərbi Tibb Fakültəsini yeni bitirmiş gənc zabitlərlə toplanış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, gənc zabitlərin bilik səviyyəsinin artırılması və praktiki vərdişlərinin möhkəmləndirilməsi məqsədilə toplanış ərəfəsində keçirilən məşğələlərin sonunda məqbullar qəbul edilib.

Toplanışın yekununda birlik komandanlığının gənc zabitlərlə görüşü keçirilib, onlara tövsiyə və tapşırıqlar verilib.

Daha sonra toplanış məşğələlərində ən yaxşı nəticə göstərmiş gənc zabitlər birlik komandanlığı tərəfindən fəxri fərmanla təltif edilib, xidmətdə onlara uğurlar arzulanıb.

Sonda xatirə şəkli çəkdirilib.

# İdman

## Hacımurad Hacıyev dünya çempionatının bürünc medalını qazanıb



Avqustun 12-dən Estoniyanın paytaxtı Tallinndə gənc güləşçilər arasında start götürən dünya çempionatı davam edir.

Avqustun 14-də yarışların üçüncü günündə 61, 74, 86, 92 və 125 kiloqramda çıxış edən sərbəst güləşçilər medallar uğrunda mübarizə aparıblar. Milli komandamızın üzvü Hacımurad Hacıyev (74 kq) üçüncü yer uğrunda rusiyalı güləşçi Devid Betanovu 7:0 hesabı ilə məğlub edərək bürünc medal qazanıb. Qeyd edək ki, H.Hacıyev avqustun 13-də gürcü və yunan həmkarlarını üstələyərək yarımfinala çıxsa da, bu mərhələdə amerikalı güləşçiyə məğlub olub.

## Dünya çempionatında daha bir güləşçimiz bürünc medal qazanıb



Estoniyanın paytaxtı Tallinndə gənc güləşçilər arasında dünya çempionatında sərbəst güləş üzrə daha bir təmsilçimiz bürünc medal qazanıb.

Milli komandanın üzvü Abubakr Abakarov (79 kq) təsəlliverici qarşılaşmalarda əvvəlcə italiyalı Salvatore Dianani mübarizədən kənarlaşdırıb (15:1).

Daha sonra Yaponiya pəhləvanı Yudai Takahaşiyə vaxtından əvvəl qalib gəlib (10:0). Bürünc medal qarşılaşmasında erməni güləşçisi Arman Avaqyanla üz-üzə gələn pəhləvanımız həlledici görüşdən qalib ayrılıb və komandamızın aktivinə növbəti bürünc medalı yazdırıb (6:4).

Bundan əvvəl yığmanın digər üzvü Turan Bayramov (65 kq) dünya çempionatının bürünc medalını qazanıb.

## Boksçularımız qitə birinciliyində iki medal qazanıb



Tbilisidə 13-14 yaşlı boksçular arasında keçirilən Avropa birinciliyinə yekun vurulub.

Qitə birinciliyində Azərbaycanın boks komandası bir qızıl və bir gümüş medal qazanıb. Qızıl medalı yığmamızın aktivinə Məhəmmədəli Qasımzadə (43 kq), gümüş medalı isə Məhəmmədəli Aşurəliyev (44,5 kq) yazdırıblar.

## İki şahmatçımız Avropa birinciliyinin qalibi olub



Slovakiyanın paytaxtı Bratislavada yeniyetmə şahmatçılar arasında keçirilən Avropa birinciliyi başa çatıb. Çempionatda müxtəlif yaş kateqoriyaları üzrə iştirak edən şahmatçılarımızdan Ayan Allahverdiyeva 14, Dinarə Hüseynova 8 yaşlılar arasında ən yüksək nəticə göstərərək qitə birinciliyinin qalibi olublar. Digər təmsilçilərimiz Səadət Bəşirli (8 yaş, 7,5 xal) ikinci, Cahandar Azadəliyev (10 yaş, 7,5 xal), Yusif Kərimli (8 yaş, 7 xal) üçüncü yerləri tutublar.

**AZƏRTAC-ın materialları əsasında**

Çavuş Eminova Ülviyyə Səftər qızına 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
kapitan Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 542
Nüsxə 3950